BAKI SLAVYAN UNİVERSİTETİ

İTİC2026 BSU KONFRANSI

YÜKSƏK TƏHSİL MƏRKƏZİ BAKI SLAVYAN UNİVERSİTETİ

# "İNKLÜZİV TƏHSİLDƏN İNKLÜZİV CƏMİYYƏTƏ: DAYANIQLI VƏ İNKLÜZİV UNİVERSİTET MODELİ"

# (İTİC2026)

## IV beynəlxalq elmi-praktik konfrans

Aprel **16** 2026

*Alimləri, tədqiqatçıları və mütəxəssisləri inklüziv təhsildən inklüziv cəmiyyətə keçidin elmi əsaslarının müzakirəsinə dəvət edirik. Konfrans çərçivəsində aktual tədqiqat nəticələrinin və qabaqcıl akademik təcrübələrin paylaşılması, elmi müzakirələrin aparılması, eləcə də elmi və institusional əməkdaşlıq imkanlarının genişləndirilməsi üçün səmərəli akademik platforma yaradılacaq və qeyd olunan akademik platformanın yaradılması və inkişafında elmi baxışlarınız və təcrübənizlə fəal iştirak etməyinizi dəvət edirik.*

*#inklüzivtəhsildəninklüzivcəmiyyətə* *#fromInclusiveeducationtoaninclusivesociety*

*#kapsayıcıeğitimdenkapsayıcıtopluma*

BAKI SLAVYAN UNİVERSİTETİ

İTİC2026 BSU KONFRANSI

YÜKSƏK TƏHSİL MƏRKƏZİ BAKI SLAVYAN UNİVERSİTETİ

**AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

# "İNKLÜZİV TƏHSİLDƏN İNKLÜZİV CƏMİYYƏTƏ: dayanıqlı və inklüziv universitet modeli" (İTİC2026) IV beynəlxalq elmi-praktik konfransının

## MƏLUMAT MƏKTUBU

Hörmətli həmkarlar,

Sizi 16 aprel 2026-cı il tarixində Bakı Slavyan Universitetində keçiriləcək "İnklüziv təhsildən inklüziv cəmiyyətə: dayanıqlı və inklüziv universitet modeli" (İTİC2026) IV beynəlxalq elmi-praktik konfransında iştirak etməyə dəvət edirik.

**Konfransın məqsədi:**
İnklüziv təhsilin təşkilində ali təhsil müəssisələrinin qarşısında duran məsələlər, məzmun və təlim texnologiyaları, səriştə əsaslı kadr hazırlığı istiqamətində yerli və beynəlxalq təcrübələrin öyrənilməsi və müzakirəsi platformasının yaradılmasıdır. "İnklüziv təhsildən inklüziv cəmiyyətə: dayanıqlı və inklüziv universitet modeli" (İTİC2026) IV beynəlxalq elmi-praktik konfransın məqsədi inklüziv təhsilin nəzəri və praktiki aspektlərini müzakirə etmək, inklüziv universitet modelinin formalaşdırılması və inkişafı yollarını araşdırmaq, inklüziv təhsilin dayanıqlı cəmiyyətin qurulmasındakı rolunu elmi əsaslarla təhlil etməkdir.
Konfrans çərçivəsində ali təhsil müəssisələrində inklüziv mühitin yaradılması, akademik heyətin peşəkar inkişafı, sosial siyasət və şəhər mühitinin inklüzivlik prinsipləri əsasında təşkili ilə bağlı aktual problemlər və qabaqcıl təcrübələrin müzakirəsi, elmi əməkdaşlığın gücləndirilməsi və beynəlxalq təcrübə mübadiləsinin aparılması nəzərdə tutulur.

**Konfransda kimlər iştirak edə bilər?**

- ali və orta ixtisas təhsili müəssisələrinin professor-müəllim heyəti və tədqiqatçıları;
- doktorantlar, dissertantlar və magistrantlar;
- inklüziv təhsil sahəsində çalışan mütəxəssislər və praktiklər;
- təhsil idarəetməsi və sosial siyasət sahəsində çalışan dövlət və qeyri-dövlət qurumlarının nümayəndələri;
- bələdiyyə və şəhərsalma üzrə mütəxəssislər;
- xüsusi təhsil müəssisələrinin, reabilitasiya və sosial xidmət mərkəzlərinin nümayəndələri;
- yerli və beynəlxalq təşkilatların, QHT-lərin təmsilçiləri.

**“İNKLÜZİV TƏHSİLDƏN İNKLÜZİV CƏMİYYƏTƏ: dayanıqlı və inklüziv universitet modeli” (İTİC2026) IV beynəlxalq elmi-praktik konfransının**

## MƏLUMAT MƏKTUBU

### Konfransın əsas bölmələri və müzakirə mövzuları

### I. İnklüziv təhsil – dayanıqlı cəmiyyətin əsası kimi

Bu bölmədə aşağıdakı mövzuların müzakirəsi nəzərdə tutulur:
- inklüziv təhsilin konseptual və hüquqi əsasları;
- inklüziv təhsilin dayanıqlı inkişaf məqsədləri ilə əlaqəsi;
- inklüziv təhsil siyasətinin formalaşdırılması və icra mexanizmləri;
- bərabər təhsil imkanlarının təmin olunması və sosial ədalət;
- inklüziv təhsildə innovativ yanaşmalar və rəqəmsal texnologiyaların tətbiqi;
- inklüziv təhsil sahəsində milli və beynəlxalq təcrübələr.

### II. İnklüziv təhsildə akademik heyətin rolu və peşəkar inkişafı

Bu bölmə çərçivəsində aşağıdakı mövzular əhatə olunacaq:
- akademik heyətin inklüziv təhsilə hazırlıq səviyyəsi;
- müəllimlərin inklüziv kompetensiyalarının formalaşdırılması;
- inklüziv təhsildə pedaqoji və metodiki yanaşmalar;
- akademik heyətin davamlı peşəkar inkişafı və təlim proqramları;
- inklüziv təhsildə mentorluq və komanda işi;
- müəllimlərin inklüziv təhsil prosesində qarşılaşdığı çətinliklər və həll yolları.

### III. İnklüziv şəhər mühiti və sosial siyasət

Bu bölmədə aşağıdakı mövzuların müzakirəsi nəzərdə tutulur:
- inklüziv şəhər mühitinin formalaşdırılması prinsipləri;
- əlçatan infrastruktur və universal dizayn anlayışı;
- inklüziv sosial siyasət və sosial xidmətlərin təşkili;
- təhsil, məşğulluq və sosial inteqrasiyanın əlaqələndirilməsi;
- inklüziv şəhər mühitində ali təhsil müəssisələrinin rolu;
- yerli icmaların inklüziv cəmiyyətin qurulmasında iştirakı.

“İNKLÜZİV TƏHSİLDƏN İNKLÜZİV CƏMİYYƏTƏ:
dayanıqlı və inklüziv universitet modeli” (İTİC2026)
IV beynəlxalq elmi-praktik konfransının

# MƏLUMAT MƏKTUBU

## Konfransın mühüm tarixləri:

| | |
|---|---|
| *Məqalələrin göndərilməsi üçün son tarix* | *20 mart 2026-cı il* |
| *Qəbul olunmuş məqalələr haqqında müəlliflərə məlumatın verilməsi* | *30 mart 2026-cı il* |
| *Məruzəni müşayiət edən təqdimatın (PPT/PPTX) göndərilməsi üçün son tarix (əgər varsa)* | *06 aprel 2026-cı il* |
| *Konfransın keçirildiyi tarix* | *16 aprel 2026-cı il Bakı*<br>*18 aprel 2026-cı il Gəncə* |
| *Konfrans materiallarının nəşri* | *30 iyun 2026-cı il* |

## Konfransın işçi dilləri:

Azərbaycan dili, türk dili və ingilis dilidir.

## Konfrans materiallarının tərtibinə qoyulan tələblər (APA7 üslubunda)

Format: A4, ölçü 12 pt, şrift Times New Roman, hər tərəfdən kənar boşluqlar 2 sm, sətirarası interval 1,5, abzas 1,25. Mətnin sözləri sətirdən sətirə keçirilmədən yığılmalıdır.

## Forma 1. Müəllif haqqında məlumat

| | |
|---|---|
| **Müəllifin adı, atasının adı, soyadı** | |
| **İş yeri və vəzifəsi** | |
| **Elmi adı və elmi dərəcəsi** | |
| **ORCID İD** | |
| **Əlaqə telefonu** | |
| **Elektron poçt ünvanı** | |
| **Məqalənin adı** | |
| **Konfransın istiqaməti** | |
| **Açar sözlər** | |

**"İNKLÜZİV TƏHSİLDƏN İNKLÜZİV CƏMİYYƏTƏ:**
**dayanıqlı və inklüziv universitet modeli" (İTİC2026)**
**IV beynəlxalq elmi-praktik konfransının**

**MƏLUMAT MƏKTUBU**

**Forma 2. Məqalə (forma 1-dən sonra yerləşdirilir)**

Məqalənin strukturu və tərtib qaydaları:
1.Məqalənin adı (böyük hərflərlə, qalın şriftlə,ortadan)

2.Müəllifin adı, soyadıadı (tam açıqlanmalı, kiçik hərflərlə, qalınşriftlə, sol tərəfdən)

3.Elmi dərəcəsi, elmi adı, iş yeri, ölkə, şəhər, e-mailünvanı, ORCID İD (tam açıqlanmalı, kiçik hərflərlə, adi şriftlə, sağ tərəfdən)

4.Açar sözlər (5-7 söz, məqalənin yazıldığı dildə və ingilisdilində)

5.Xülasə (250 söz, məqaləninyazıldığı dildə və ingilis dilində)

6.Məqalənin mətni (bütün tərtibat daxil olmaqla 8 səhifəyə qədər)

7.Ədəbiyyat siyahısı (əlifba sırası ilə). Ədəbiyyata istinadlar mətndə mötərizədə mənbənin nömrəsi və səhifəsi göstərilməklə verilir. Məsələn: [2] və ya [2; 5; 8] və ya [2; 14-15]

Müəllif haqqında məlumat və məqalə bir faylda 06 mart 2026-cı il tarixindən gec olmayaraq https://bsu-uni.edu.az/Elm/Seminar2 linki vasitəsilə qeydiyyatdan keçərək göndərilməlidir.

Təqdim olunan bütün məqalələr müəllif mətninin orijinallıq dərəcəsi baxımından ekspertizadan keçiriləcəkdir.

Əlaqə və ətraflı məlumat:+994 50 860 08 58

Azərbaycan Respublikası, Bakı şəhəri, Bakı Slavyan Universiteti, AZ1014, S.Rüstəm küç., 33